## Səyyar vergi yoxlamaları

Vergi nəzarətinin bu forması həm çox zəhmət, vaxt, həm də yüksək peşəkarlıq tələb edir və belə yoxlamaların aparılması o zaman məqsədəuyğun hesab edilir ki, onların aparılmasına çəkilən xərclər yoxlama zamanı əlavə olaraq hesablanmış məbləğdən dəfələrlə az olsun. Səyyar vergi yoxlamaları növbəti və növbədənkənar keçirilir. Növbəti səyyar vergi yoxlaması keçirildikdə, vergi orqanı tərəfindən vergi ödəyicisinə vergi yoxlamasının başlanmasından azı 15 gün əvvəl yazılı bildiriş göndərilir. Növbəti səyyar vergi yoxlaması ildə bir dəfədən çox olmayaraq keçirilir və bu proses 30 gündən artıq davam edə bilməz. Müstəsna hallarda yoxlamanın keçirilmə müddəti 90 günə qədər artırıla bilər.

Ölkəmizdə səyyar vergi yoxlamalarının sayında azalma müşahidə edilir. Respublika üzrə 2012-ci ilin ilk altı ayı ərzində ümumilikdə 5858 vergi ödəyicisində, o cümlədən 3653 hüquqi şəxsdə və 2205 fiziki şəxsdə səyyar vergi yoxlaması başa çatdırılmışdır. Bu göstərici 2011-ci ilin müvafiq dövrü ilə müqayisədə 4 ədəd (0,1%) azalmışdır. İlk yarımillikdə başa çatan 5858 səyyar vergi yoxlamasının 3537-si (60,4%) növbəti, 2321-i (39,6%) isə növbədənkənar səyyar vergi yoxlaması olmuşdur. 2011-ci ilin müvafiq dövrü ilə müqayisədə növbəti səyyar vergi yoxlamalarının sayı 0,4% artmış, növbədənkənar səyyar vergi yoxlamalarının sayı isə 0,8% azalmışdır. Başa çatdırılmış 5858 səyyar vergi yoxlaması zamanı 5800 (99%) vergi ödəyicisində qanunvericiliyin pozulması halı aşkar edilmişdir. 2012-ci ilin birinci yarısı ərzində respublika üzrə başa çatdırılmış yoxlamalar üzrə büdcəyə cəmi 307,9 milyon manat əlavə vəsait hesablanmışdır ki, bunun da 136,9 milyon manatını əlavə hesablanmış vergi məbləği, 171 milyon manatını isə vergilərin azaldılmasına və digər hüquq pozuntularına görə tətbiq edilmiş maliyyə sanksiyası təşkil etmişdir. Nəticədə cari ilin 6 ayı ərzində ötən ilin müvafiq dövrü ilə müqayisədə səyyar vergi yoxlamaları üzrə əlavə hesablanmış vergi məbləği 89,3 milyon manat (53,3%), tətbiq edilmiş maliyyə sanksiyası isə 93,7 milyon manat və ya 2,2 dəfə artmışdır. 2011-ci ilin müvafiq dövrü ilə müqayisədə cari ilin 6 ayı ərzində başa çatdırılmış səyyar vergi yoxlamaları zamanı hesablanmış cəmi əlavə vəsaitin məbləği 141,3 milyon manat (84,8%) artmışdır.

2012-ci ilin yanvar-iyun ayları ərzində başa çatdırılmış səyyar vergi yoxlamaları zamanı hesablanmış əlavə vergi məbləğinin 51,5 milyon manatı (37,6%) növbəti, 85,4 milyon manatı (62,4%) isə növbədənkənar səyyar vergi yoxlamaları ilə hesablanmışdır. Başa çatdırılmış səyyar vergi yoxlamaları zamanı vergilərin azaldılmasına və digər hüquq pozuntularına görə tətbiq edilmiş maliyyə sanksiyasının 40,1 milyon manatı (23,4%) növbəti, 130,9 milyon manatı (76,6%) isə növbədənkənar səyyar vergi yoxlamalarının payına düşür. Beləliklə, hesablanmış cəmi əlavə vəsaitin 91,6 milyon manatı (29,7%) növbəti yoxlamalarla, 216,3 milyon manatı (70,3%) isə növbədənkənar yoxlamalarla hesablanmışdır. Göründüyü kimi, ilin ilk yarısı ərzində başa çatdırılmış səyyar vergi yoxlamalarında növbədənkənar səyyar vergi yoxlamalarının xüsusi çəkisi 39,6% təşkil etdiyi halda, hesablanmış cəmi əlavə vəsaitin 70,3%-i bu yoxlamaların payına düşmüşdür.

Yanvar-iyun ayları ərzində növbəti səyyar vergi yoxlamaları nəticəsində hesablanmış cəmi əlavə vəsaitin məbləği 2011-ci ilin müvafiq dövrü ilə müqayisədə 16,6 milyon manat (22,1%), növbədənkənar səyyar vergi yoxlamaları nəticəsində hesablanmış cəmi əlavə vəsaitin məbləği isə 124,7 milyon manat və ya 2,4 dəfə artmışdır.

Başa çatdırılmış səyyar vergi yoxlamaları üzrə orta hesabla hər yoxlamaya düşən cəmi əlavə vəsaitin məbləği 52,6 min manat təşkil etmişdir ki, bu da 2011-ci ilin müvafiq dövrü ilə müqayisədə 24,1 min manat (84,9%) çoxdur. Hər növbəti səyyar vergi yoxlamasına düşən cəmi əlavə vəsaitin məbləği 25,9 min manat, hər növbədənkənar vergi yoxlamasına düşən cəmi əlavə vəsaitin məbləği isə 93,2 min manat təşkil etmişdir.

Səyyar vergi yoxlaması bilavasitə vergi ödəyicisinin yerləşdiyi ərazidə həyata keçirilir. Bu cür yoxlamaların aparılması üçün vergi ödəyicilərinin seçilməsində təsadüfi, xüsusi, daxili və kənar informasiya əsasında seçmə üsullarından istifadə olunur. Səyyar vergi yoxlamasının aparılması kifayət qədər çox vaxt tələb etdiyindən bütün vergi ödəyicilərində bu yoxlamanın aparılmasının müntəzəmliyini təmin etmək olmur. Buna görə də səyyar vergi yoxlamasının aparılması üçün orta

statistik vergi ödəyicilərinin arasından təsadüfi olaraq müəyyən bir hissəsi seçilir. Xüsusi seçmə üsulu ilə elə vergi ödəyiciləri müəyyənləşdirilir ki, onlarda vergi qanunvericiliyinin pozulması ehtimalı daha yüksək olur.

Daxili informasiya əsasında seçmə üsulu bir neçə istiqamətdə aparılır. Bu zaman vergi ödəyicisinin vergi və mühasibat hesabatları göstəricilərinin analoji vergi ödəyicilərinin uyğun orta göstəriciləri ilə müqayisə edilir. Hesabat məlumatları orta göstəricilərdən kəskin surətdə fərqlənən vergi ödəyiciləri seçilir. Vergi orqanlarının yoxlamalar nəticəsində əldə etdikləri məlumatlar kənar mənbələrdən alınmış informasiyalar əsasında genişləndirilir. Belə informasiyaların əsas mənbələri maliyyə orqanlarından, banklardan, digər nəzarət orqanlarından, kütləvi informasiya vasitələrindən və digər mənbələrdən əldə edilmiş məlumatlardır.

Arzu İBRAHİMOVA